Xalq qəzeti 2020.- 6 sentyabr.- S.4.

# Yenidən sərt karantin rejiminə qayıtmamaq üçün...

***Ölkəmizdə pandemiya dövründə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün məhz dövlət tərəfindən böyük vəsait ayrılmış, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu az olduğundan pandemiya ilə uğurla mübarizə aparmağa imkan vermirdi. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırıldı, ən müasir xəstəxana – Yeni Klinika açıldı. Modul tipli 11 xəstəxana inşa edildi. Bu xəstəxanalarda 4100 xəstə üçün çarpayı var.***

Bütün bunlar onu göstərir ki, COVID–19-la mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Pandemiya dövründə bu və digər amillər imkan verdi ki, ölkəmiz vəziyyəti nəzarət altında saxlasın. Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Azərbaycan Prezidentinin avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda çıxışı zaman bildirdiyi kimi, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, həm də onlar ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir.

Prezident bildirdi ki, COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayı artırılıb.



Pandemiya başlayanda 6 laboratoriya olsa da, bu gün o laboratoriyaların sayı 45-ə çatdırılır. Ölkəmizdə 922 mindən çox test keçirilibdir. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da təbiidir, nə qədər çox test keçirilirsə, o qədər də çox yoluxma halları aşkarlanır. Bizim əsas məqsədimiz və vəzifəmiz məhz bundan ibarətdir ki, bütün yoluxanlar müayinədən keçirilsin və onlara vaxtında tibbi xidmət göstərilsin.

Dövlət başçımız çıxışında dedi ki, pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Səhiyyə sistemində çalışan insanlar prinsip etibarilə daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da geniş miqyaslı olub: “Təkcə onu demək kifayətdir ki, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 misli artırılıb. Ancaq burada əsas problem həkimlərin sayındadır. Çünki heç bir ölkə bu pandemiyaya hazır deyildi. Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə, əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən – Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər”.

Ümumdünya Səhiyyə Təşkilatı ilə də ölkəmizdə bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Yəni, görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi bizim mübarizədə əsas rol oynamışdır. Əminliklə demək olar ki, görülən bütün bu işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Müsbət dinamikanın qorunub saxlanması vətəndaş məsuliyyətindən asılıdır. Ümid edirik ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaqdır.

Hazırda məhdudiyyətlərin çoxu aradan qaldırılıb, amma yenə də diqqət edilməli məqamlar var. Hələ ki, kütləvi tədbirlərin keçirilməsinə, iri ticarət şəbəkələrinin fəaliyyətinə, rayonlara kütləvi gediş-gəlişə qoyulan qadağalar qüvvədədir. Bu qadağalar təbii ki, ancaq insanların sağlamlıqları naminə, virusa yoluxmamaq üçün tətbiq edilir. Sentyabrın 15-dən məktəblər və bağçaların fəaliyyəti bərpa edilir. İnşaallah ki, insanlar qaydalara əməl edər və yenidən sərt karantin rejiminin tətbiqinə zərurət yaranmaz.

***Nurlana ƏLİYEVA,***
***ATU-nun Tədris Cərrahiyyə Klinikasının şöbə müdiri***